# Xarici ölkə bəstəkarları əsərlərinin yeri və əhəmiyyəti

**İradə Əhməd qızı Əhmədova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinın baş müəllimi*
**E-mail:** musicland81@rambler.ru

**Rəyçilər:** p.ü.f.d., dos. K.R. Sədirxanova,
p.ü.f.d., dos. A.F. Aşumova

**Açar sözlər:** tələbə, ekspromt, ballada, prelüd, F.Şubert, F.Şopen, fortepiano
**Ключевые слова:** студент, экспромт, баллада, прелюдия, Ф.Шуберт, Ф.Шопен, фортепиано
**Key words:** student, ekspromt, ballad, prelude, F.Shubert, F.Shopen, piano

Tələbələrdə musiqi əsərlərinin məzmununa maraq, Azərbaycan klassik irsi üçün qürur hissinin, xalq mahnılarına maraq və məhəbbətin tərbiyə edilməsi, həmçinin xarici klassik, romantik nümunələrinin öyrənilməsi - repertuar seçilərkən müəllim qarşısında duran vəzifələrdəndir. Repertuarın düşünülmüş şəkildə seçilməsi tələbələrin hərtərəfli inkişafına və tədris prosesinin düzgün təşkilinə səbəb olur.

XIX əsrin görkəmli Avstriya bəstəkarı, F.Şubert musiqidə romantizmin ilk nümayəndəsi olmuşdur. O, Bethovenin müasiri olmuş, təqribən on beş ilə yaxın bir şəhərdə yaşayaraq əsərlər yazırdı. Buna baxmayaraq, hər iki bəstəkarın birbirindən fərqli musiqi üslubları vardır. Əgər Bethoven Vyana klassisizmin son nümayəndəsi olmuşdursa, Şubert ilk Vyana romantik bəstəkar idi. Romantizma xas olan - lirik mövzular, tənhalıq mövzusu, aftobiografiklik. Xalq-məişət janrına müraciət edərək o, öz iç dünyasının bütün çalarlarını rəngarəng ifadə vasitəsilə, zəngin harmonik dillə əks etdirmişdir. Şubert musiqi tarixində qısa bir ömür sürərək romantizmin ilk qaranquşu olmuşdur. Yuxarıda qeyd etdiyimiz baxımdan bəstəkarın yaradıcılığı, xüsusilə fortepiano yaradıcılığı, tələbələr üçün böyük maraq və xeyir yaradır. Şubertin yaradıcılığının ən böyük nailiyyətlərindən biri, mahnı kimi, bir zamanlar evdə, məişətlə bağlı olaraq ifa olunan musiqidən birhissəli fortepiano pyeslərinin yaranması olur.

Doğrudur, Şubert  müasir ifaçılığa, konsert pianoçusu pilləsinə qalxmamışdır. Buna səbəb onun ümumiyyətlə xarici effektə malik olan virtuoz ifaçılığa olan mənti münasibəti idi. Amma bütün ömrü boyu fortepiano ücün əsərlər yaratmaqda böyük tələbat duyurdu. Daha çox improvizələrdən yaranan fortepiano musiqisi əsasən kamera xarakterli təbiətilə seçilir. Şubertin fortepiano üslubunun formalaşması dərin köklərə gedir. Bethovenin “Baqatel”ləri, çex musiqi məktəbi Vyanonin məişətlə bağlı rəqs musiqisi və əlbətdə mahnıların, onun lirik obrazlarının təsviretmə təbiətindən gələn xüsusiyyətlər fortepiano üslubunun formalaşmasında başlıça rol oynamışdır. Fortepiano musiqisindəki yeniliklərdən biri rəqslərdə, əsasən vals və marşlarda görürük. Valsın fortepiano musiqisinə daxil olması Şubertin musiqisinin demokratizə edilməsini göstərir. Öz lirikliyi, melodikliyi, müşayiətdə olan tembr rəngarəngliyi ilə seçilən Şubertin sonata-simfonik əsərlərdə təsir edərək öz xüsusiyyətlərini ənənəvi menuet və ya skersoda göstərir.

Heç bir bəstəkar Şubert kimi dörd əlli fortepiano ədəbiyyatina yer ayırmamışdır. Doğrudur, Motsartm yaradıcılığında klavir duetlərlə bağlı nümunələr vardır. Lakin Şubert bu janrın yaradıcısı sayılır. Fortepiano musiqisinin sonrakı inkişafında bu sahə ikinci plana keçir. Ona

görə də Şubertin bu sahədə ki nailiyyətləri kölgədə qalır. Dörd əlli ifayla bağlı əsərləri böyük diapazonu əhatə edir (marşlar, polonezlər, rondo, divertizmentlər və s.) Bu məişət janrına böyük bədii əhəmiyyət verərək (zəngin faktura, dolğun səslənmə, tembr rəngarəngliyi) həvəskar ifaçılara xas olan bu sənətin spesifikliyinə də qoruyub saxlamışdır. Onun fortepiano duetlərin arasında həyatının sonuna yaxın yazdığı fa minor fantaziyası, "Böyük duet", "Macar divertismentini" misal göstərmək olar. Yaradıcılığının sonuna yaxın o, romantik fortepiano miniatür janrını yaradır. Buraya "Ekspromtlar" və altı "Musiqi anı" daxil edir. O dövr üçün yeni olan bu adlar əslində müəllifin əsas ideyasını ifadə etmək üçün belə adlandırılmışdır. Hər bir "Musiqi anında", "Erspromt"da sənətkarın emosional cəhətdən zəngin olan daxili aləminin anları təsvir olunmalı idi. Beləliklə, Şubertin fortepiano əsərlərinin öyrənilməsi tələbələri musiqi dünyasının vacib bir səhifəsini açır və onların inkişafında öz yerini tapır.

Janr – bədii yaradıcılığın, onu yaradan tarixi mühitin həyatla və məişətlə bağlı olan və ya digər növüdür. İlk dəfə "janr" sözü rəsimdə yaranıb. Janrlı rəsm mənasında o vaxtlar müasir rəssamın çəkdiyi real gündəlik məişət çıxış edirdi. Məsələn, XVI-XVII əsrlərin flamand və holland rəssamları xalq gəzintilərinin və bayramlarının, kəndlilərin və əsnafların əməyinizi, köçəri musiqiçilərin, traktirlərdə şən məclislərin şəkillərini ustalıqla çəkməklərilə şöhrət qazanmışdılar. Belə şəkillər çəkən rəssamlar «yanrist» adlanırdılar.

Vaxt keçdikcə «janr» anlayışı daha geniş mənada, bədii yaradıcılığın və ya digər növü mənasında istifadə olunmağa başladı. Bədii yaradıcılığın digər sahələri kimi, musiqi incəsənəti müxtəlif janrlarla zəngindir. İri planda bütün musiqi janrlarını iki qrupa bölmək olar: vokal, oxumaq üçün (müşayətlə və onsuz) nəzərdə tutulan və instrumentala.

Əsrlər boyunca vokal musiqi birinci yerdə dururdu. İnstrumental musiqi isə o vaxtlar köməkçi, tətbiqi xarakter daşıyırdı. Mahnı və rəqslərlə birlikdə qədim zamanın musiqiçiləri hərbi və ovçu havaları, şən süfrə başında çalınan musiqi, parad və müxtəlif mərasimlər üçün musiqi və s. bəstələyirdilər. Başqa sözlə desək, bacardıqları səviyyədə insanın məişətinə xidmət göstərirdilər. Və yalnız xeyli sonra, ictimai həyatın inkişafı və qəlizləşməsi, insanların ideya səviyyəsinin genişlənməsilə mənaca daha dərin və forma baxımından çətin instrumental əsərlərin yaranmasına tələbat yaranır. Tədricən, köhnədən mövcud olan janrlar öz tədbiqi mənasını itirirlər və yeni, daha dərin emosional məzmunla dolurlar. Həmçinin, musiqi əsərlərinin yeni, heç bir tətbiqi köməkçi mənası olmayan növləri əmələ gəlir: sonatalar, konsertlər simfoniyalar. Kamera və instrumental musiqi janrları yaranır və inkişaf edir.

XVI-XVII-ci əsrlərin qədim musiqisində hətta ondan bir qədər əvvəlki vaxtlarda da əsas yer prelüd janrına məxsus idi. Bu janr müstəqil bir janr kimi ona italyan və ispan musiqiçilərinin repertuarında rast gəlmək olardı. Prelüdiya çox da böyük olmayan, impravizasiya xarakterli instrumental pesdir. Prelüdiyaların əksəriyyəti tez, canlı, hərəkətli ən əsası da bərabər uzunluqda olur. Bununla belə oxunaqlı, qabarıq şəkildə əks olunan prelüdiyalarda az deyil. Buna misal olaraq Y.S.Baxın cox məhşur olan «Yaxşı temperasiya olunmuş klavir» göstərmək olar. Bütün bunlarla bərabər Baxın çoxlu sərbəst prelüdiyalarma da rast gəlmək olar, hansı ki, heç nəyə bağlılığı yoxdur.

Qeyd etmək lazımdır ki, XVIII əsrin ortalarında və ondan sonralar bəstəkarlar prelüdiya yazmağı dayandırdılar. Bu janr heç də Haydn, Motsart, Bethoven, Şubert kimi bəstəkarlara xas deyil. XIX əsrin ilk prelüdiya janrına müraciət edən ən böyük, dahi bəstəkarlarından biri Şopen olub.

Şopenin prelüdləri rəssamlıq cəhətindən bitkin fortepiano əsərləridir. Onlardan çoxu qısa, lakonik şəkildədir. Bəzilərində improvizasiya xarakteri vardır. Bu artıq giriş deyildi, sərbəst əsərlər idi. Məsələn: 13 və 19-cu prelüdiyalarda noktürnun oxşarlığı, 20-ci də matəm marşı-

nın, 7-ci də mazurkanın və s. Demək olarki, prelüdiyalar yalnız bir psixoloji vəziyyəti əhatə edir. Bütünlükdə isə müxtəlif insanın psixoloji vəziyyətini əks etdirir. Prlelüdiyanın yeni formasını rus bəstəkarları inkişaf etdiriblər: Lyadov, Skryabin, Raxmaninov. 24 prelüddən ibarət olan yığmanı D.Şostakoviç yazmışdır.

Etüdlər, instrumental pyeslər bunlar əsasən texniki çalışmalar kimi istifadə olunur. Əvvəllər etüdlər adama texniki çalışmadan başqa heç bir təsir bağışlamırdı (Klementi, Kramer, Çerni). Qiymətli fortepiano ədəbiyyatına Şopenin iki dəftərdən ibarət etüdləri daxildir. Şopenin addımladığı yol, hansı ki yüksək səviyyədə rəssəmcasına yürabolığı əsərləri yaratmaqda başqa sahələrdə yaradan dahi bəstəkarlar yol göstərirdi. Hər şeydən əvvəl bu Paqanini olmuşdu, hansı ki Varşavada öz skripka üçün etüdlərini çalan zaman Şopeni heyran etmişdi. Onlar təsiri özünü Şopenin etüd janrında yaradıcı virtuoz çətinlikdə olan etüdlərdə özünü aydın biruzə verir. Hətta Şopenin bu janrda yaratdığı əsərlərə səthi baxsaq belə əmin olmaq heç də çətin deyil ki, onların yeni virtuoz texnikası öz dövrünün pianist virtuozluğunu qabaqlayır. Şopen hər bir etüdə bir texniki forma tərəfindən baxır, hansı ki, bu onun yeni musiqili obrazının interpretasiyasını düzgün açmağa şərait yaradır. Şopenin bəzi etüdləri dünya musiqi ədəbiyyatına ən məşhur preslər kimi daxildir. Etüd mi major op.10 özünün yankeçilməz musiqili gözəlliyi ilə seçilir. Şopenin fikrinə görə bu etüdün mətni onun yaratdığı melodiyaların ən gözəlidir.

Ballada janrı – həm ədəbiyyatda, həm də musiqidə romantik dövrün mühitində inkişaf edib. Bu qədim incasənət növü intibah zamanı əmələ qəlib. Ən çox Fransada və İngiltərədə geniş yayılmışdı. İki əsrin hüdudunda yenidən aşkar olunmuşdu və öz yüksəlişinə 19 əsrin yazıçı və bəstəkarlarının yaradıcılığında çatmışdır. Balladıya müraciət onların milli mənbəyə və xalq yaradıcılığına olan maraqla bağlıdır və həmçinin, qədim dövrün, keçmişin ideallaşdırılması ilə. Balladaların məzmunu bir qayda olaraq, dramatik epizodlarla, fantastik atmosferayla dolu olur və burada reallıq və uydurma, xəyal və görünmə bir-biriylə qarışır.

Şopen üçün ballada janrı xüsusi məna kəsb edirdi. 19 əsrin Polşa ədəbiyyatında ballada patriotik əhval-ruhiyyənin ifadəçisi olmuşdur. Onlar qədim əfsanələrdə və tarixi rəvayətlərdə milli müstəqillik ideyalarını ifadə edirdilər. Şopen öz həmvətənlisi Mitskeviçi poetik yaradıcılığının güclü təsiri altında idi. Şopenin dörd balladası fortepiano musiqisinin xəzinəsinə daxildir. Onlarla həm epik rəvayət, həm real və fantastik obrazların dolaşması, həm də dramatik kulminasiya aydınlaşdırılması mövcüddur. Şopenin balladaları zidd xarakterli tematik epizodlarla zəngindir. Biz daima real və fantaziyanın, yer və göyün tutuşdurulmasını eşidirik və bunlar romantik balladaya xas olan elementlərdir. Xalq dastançısı obrazı bəstəkar tərəfindən birinci balladanın epik sakit əvvəlində əks olunub. Bir çox tematik yaranmalırın danışıq intonasiyaları poetik mənbəylə olan əlaqəyə işarə edir.

Yuxarıda qeyd etdiyimiz bəstəkarlarının yaradıcılığı dünya musiqi ədəbiyyatında çox böyük əhəmiyyəti vardır. Bu bəstəkarların əsərləri dünyavi əhəmiyyət kəsb edərək tələbələrin inkişafında aparıcı rol oynayır. Ümumi musiqili incəsənətə müraciət etməklə düşünərək intellektual və estetik etapların inkişafına gəlirik. Əgər tələbələr Şubert, Şopen kimi dünya bəstəkarların əsərlərini öyrənməsələr onlar nə musiqidə nə də təhsildə heç bir nəticə əldə edə bilməzlər.

Görkəmli Azərbaycan bəstəkarı Ü. Hacıbəyov qeyd etmişdir ki, ümumi insani mədəniyyətə, onun hər bir qayda-qanunlarına yaxınlaşmağa bizə şərait yaradır. O, həmişə musiqi təhsilində və tərbiyyədə Qərbi Avropa musiqisinin vacibliyini qeyd edib. Sözsüz ki, belə fikirlər bu gün də öz aktuallığını itirmir və bizdən tələb edir tələbələrin musiqi inkişafı üçün Qərbi Avropa bəstəkarlarının əsərlərinə sistematik və intensif müraciət edək. Klassik və xalq musi-

qisinin musiqi əsərləri son dərəcədə müxtəlifdilər.

Xalq mahnı və oyunları, marş və rəqsləri, romans və ariyaları, sonata və simfoniyaları, opera və oratoriyaları – bunlar hamısı musiqi əsərlərinin müxtəlif növləridir, necə deyərlər musiqi janrlarıdır. Müxtəlif xalq və millətlərdə musiqi əsərlərinin ayra-ayrı janr növləri öz həcmi və məzmun zənginliyinə görə fərqlənirlər. Klassik musiqi mədəniyyətinin keçdiyi yol sadə lirik maşın mövzularından, məişət rəqslərdən, kamera, simfonik və opera musiqisinin janrlarıyla bağlı olan, zəngin və müxtəlif məzmunu olan iri həcmli, inkişaf etmiş formalara qətirib çixarır.

**Məqalənin aktuallığı.** Xarici ölkə bəstəkarların yaradıcılığının tələbələrin fortepiano təhsili prosesində vacib rol oynamasını nəzərə alsaq, məqalə aktual hesab edilməlıdır.

**Məqalənin elmi yeniliyi.** F.Şubert, F.Şopen əsərlərinin müəsir pianoçularının repertuarına daxil edilməsi bununla əlaqədardır ki, bu əsərlər XIX əsr dünya musiqisinin parlaq nümunələridir.

**Məqalənin praktik əhəmiyyət və tətbiqi.** Məqalədən F.Şubert, F.Şopen əsərlərinin düzgün interpretasiyasının tapılmasında müəllım və tələbələr yararlana bilər.

## Ədəbiyyat

1. Алексеев А.Д. Методика обучения игре на фортепиано. М.,1978
2. Мазель Л. Строение музыкальных произведений. М., 1962.
3. Сохор А. Эстетическая природа жанра в музыке. Л., 1968.
4. Цуккерман В. Музыкальные жанры и основы музыкальной формы. М., 1964.

**И.А. Ахмедова**

## Место и значение произведений зарубежных композиторов

## Резюме

В процессе обучения студентов имеет большое значение ознакомление с произведениями зарубежных композиторов. В качестве примера в представленной статье используются произведения Ф.Шуберта, Ф.Шопена. Изучение произведений этих авторов способствует развитию пианистических навыков у студентов.

**I.A. Ahmadova**

## The place and significance of works by foreign composers

## Summary

In the process of teaching students, familiarization with the works of foreign composers is of great importance. As an example, the presented article uses the works of F.Schubert, F.Chopin. The study of the works of these authors contributes to the development of student`s pianistic skills.

**Redaksiyaya daxil olub:** 27.03.2021